# SÖZÜN BAHAR GÜLLƏRİ

## HUMANİZİM QILINCDAN KƏSƏRLİDİR

Şəfəq Məmmədova materialist təfəkkürə malik bir gənc kimi yaradıcılığının ilk çağlarında özünüifadə üçün bədii əsərlərdəki hadisə və obrazları həyatın özü ilə eyni müstəviyə gətirir və bu zaman oxşar və fərqli məqamlara işıq salmağa çalışır. Şəfəqin ədəbi tənqidə gəldiyi dövr mürəkkəb zaman idi. Zamanın özündən irəli gələn problemləri çözmək üçün "Prokuror" romanı ona ən yaxşı meydan açmışdı.

* * *

Həmişə düşünmüşəm ki, cəmiyyətin problemlərini, cəmiyyətin qarşılaşdığı bəlaları, cəmiyyətin özünün qabaqlaya biləcək imkanları var. Sadəcə bu imkanları cəmiyyət vaxtında, məqamında dəyərləndirməlidir.

Bəs cəmiyyətin qarşılaşa biləcəyi problemləri kimlər vaxtından qabaq proqnozlaşdıra, qabaqcadan cəmiyyətin həyatına, məsuliyyət daşıyan qurumlara məlumat kimi ötürə bilər?..

Doğrudur, belə təşəbbüskar adamların sırasında təəssüf ki, hələ də ekstrasenslərə, baxıcılara inanan kütlə üstünlük təşkil edir. Nostradamusun, Vanqanın... ayrı-ayrı zamanların din xadimlərinin gələcək haqqındakı rəy və yozumları çoxlu ardıcıl və inanan toplasan da nəticədə real təsirə malik heç bir dəqiq fikir olmur, fantaziyaya güvənən, populizmə əsaslanan düşüncələr havada qalır.

Əlbəttə, Nizami kimi, Sədi kimi şərq dahilərinin, eləcə də avropanın qüdrətli söz, sənət adamlarının yaradıcılığı, dünyanın böyük filosoflarının cəmiyyət haqqında düşüncələri bəsirət gözü açıq olan insanlara imkan verir ki, həqiqətə uyğun fikir və mülahizələr bildirsinlər. Söz yox, böyük siyasətçilərin, diplomatların, hərb xadimlərinin də gələcək haqqındakı rəyləri ayrı-ayrı məqamlarda böyük əhəmiyyət kəsb edir. Bütün bunların fövqündə yenə söz-sənət adamlarının yaradıcılığı dayanır. Hər bir yazıçı yaşadığı cəmiyyətin, mühitin təbiətini bilir, mənəvi həyatından xəbərdar olur. Ona görə də yazıçı öz mühitindəki problemləri qabardaraq cəmiyyətin, insanların nəzərinə çatdırır. Bir çox hallarda isə həmin problemləri qabartmaqla demək istəyir ki, insanları gələcəkdə hansı bəlalar gözləyə bilər. Bəli, xəstəlik zəncirvari şəkildə cəmiyyətin həyatında, cəmiyyətin dəyişməsi fonunda yaşayır və dərin köklər atır. Bir sözlə, bir problem başqa bir problem yaradır.

Bir qədər uzun görünsə də cəmiyyətin həyatı ilə bağlı problemlərin qabardılması haqındakı düşüncələrimiz təsadüfi deyil. Yazıçı Tofiq Əfəndiyevin hələ yetmişinci illərdə "Prokuror" romanı ilə cəmiyyətə çatdırdığı xəbərdarlıqlar, cəmiyyətin həyatı üçün məsuliyyət daşıyan insanlara ötürülən məlumatlar xüsusi əhəmiyyət kəsb edirdi. İstər hüquq mühafizə orqanlarında, istərsə də sosial həyatın müxtəlif sahələrində başlanmış mənəvi çökmə prosesi yetmişinci illərdə artıq geriyə dönməz xarakter almışdı. Gənc tənqidçi Şəfəq Məmmədovanın "Prokuror" romanı ilə bağlı təfsirləri ona görə xüsusi diqqətə layiqdir ki, əsərin nəbzini, alt qatından axan informasiyanı təkcə düzgün qavramaqla kifayətlənmir. O, informasiyanı sanki cərrah stoluna çəkir. Onun iç aləmini açır, ilk baxışdan kiçik görünən, xırda hesab edilən, guya böyük işlərin fonunda təsirsiz olacaq məsələlərə diqqəti yönəldir.

Buradaca xüsusi qeyd etmək lazımdır ki, əgər zamanında qaldırılan sosial, mənəvi problemlər, politoloqlar, siyasətçilər, ideoloqlar tərəfindən düzgün qavranılsaydı, artıq kəskinləşməkdə olan məsələlərə obyektiv münasibət göstərilsəydi, sosializm cəmiyyətinin anti-insani mahiyyəti də vaxtında və düzgün başa düşülər, siyasi sistem qanunları dəyişdirməklə tədricən qansız, qadasız öz yerini bazar iqtisadiyyatına verərdi.

Hələlik, yazıçı cəmiyyətdə gedən proseslərin, qanunun aliliyini təmin etməklə, xüsusilə, humanizmə güvənməklə düzgün idarəetmə müstəvisində həllinə inanırdı. Ancaq, bu inama baxmayaraq yazıçı, cəmiyyətin içindəki çürümə prosesini kökdən başlandığını cəmiyyətin aşağı təbəqələrində necə qol-qanad atdığını göstərir. Və tənqidçi də buna seyirçi münasibətdə qalmır: "Yazıçı inandırıcı bədii detallarla oxucuya çatdırır ki, əgər valideynlər ailədə və ...ictimai həyatda güloğlanların fəaliyyətinə nəzarət etsələr, onları bu cinayətə gətirib çıxaran səbəblər əsla olmaz. Təəssüf ki, Güloğlan belə bir qayğıdan kənarda qalmışdır. Buna görə də prokuror qız onu dərhal həbs etmir. Qocaman neftçi Balamirzənin himayəsinə verir. Çünki onun bu kollektivdə tərbiyə olunacağına əmindir. Axı neftçilərimizin çətin və şərəfli əmək yolu doğurdan da hər cür naqisliyi islah edən əsl həyat məktəbidir." Burada iki şəxsin adı çəkilir, Güloğlanın və Balamirzənin. Güloğlan gəncdir, Balamirzə isə yaşlı nəsli təmsil edir, qocaman neftçidir. Düşünmək olar ki, yazıçı ad seçimində Abşeron koloritini nə qədər əsas götürsə də, hər halda, adlar vasitəsilə də müəyyən informasiya ötürücülüyünü unutmur. Yaşlı nəslin sağlam mənəvi mühiti, çürük gəncliyin mənəvi mühiti ilə qarşı-qarşıya gəlir. Sanki, qocaman bağban susuzluqdan, baxımsızlıqdan tələf olmaqda, sıradan çıxmaqda olan ağaca xüsusi qayğı göstərməli və onu həyata qaytarmalıdır. Tənqidçinin qənaəti və yazıçının təqdim etdiyi həyat modeli sanki bir-birini tamamlayır. Və tənqidçi də öz inamını ölkənin aparıcı iqtisadiyyatının daşıycılarına münasibətdə ifadə edir. Hər halda burada üstün olan bir məqam elə bu günün özündə də təqdirə layiqdir. Prokuror öz vəzifəsindən sui-istifadə edib əməli həbs olunmağa əsas verən şəxsi ictimai həyatdan təcrid etmirsə, bu, onun yüksək humanizmindən xəbər verir. Tənqidçi isə elə məhz humanizmi yüksək dəyərləndirir. Bununla da yazıçının cəmiyyətdəki bir çox problemləri məhz humanizimlə həllinə inandğı fikrinə şərik olur. Ancaq, bu şərikliyi sadəcə hissiz, emosiyasız bildirməyən, daha doğrusu, prokurorun humanizmini yüksək rəğbət çalarında cəmiyyətə çatdırmaq üçün ritorik sualdan və əsaslı şərhlərdən istifadə edir: "Prokuror düzmü hərəkət etmişdir? Bəli, Güloğlan elə ilk addımından həyatdan, qurub-yaradan insanlardan ayrılmamalıdır. O, zəhmət adamlarının əhatəsində tərbiyə olunmalıdır. İnsan əməyinin, kollektivçiliyin ecazı onu yaxşı adam kimi yetişdirməyə, formalaşdırmağa qadirdir."

Doğrudur, tənqidçinin kollektivçiliyə münasibətdə sosializim dövrünün şüarçılıq pafosu da duyulur. Amma, hər halda istər ayrı-ayrı ləyaqətli insanların, istərsə də kollektivin gücünü təqdim edərkən "İnsan əməyinin ecazı"nı yada salır. Bütün bunlar öz yerində. Hələlik, əsər və tənqidi məqalə, başqa sözlə, yazıçı və tənqidçi dövrün çox acı bir mənzərəsini də yada salır. Məhz tənqidçi yazıçının qoyduğu problemə özünə məxsus publisistik və canlı bir dillə və həm də tənqidçidən çox yazıçılıq üslubu ilə əhatəli münasibət bildirir. Bu "ət mafiyası"na münasibətdir. Diqqət edək, indiki zamanımızla oxşar və fərqli cəhətləri ayırmağa çalışaq: "Prokuroru şəhərdə bir şəxs daha çox maraqlandırır. Bu, qəssabbaşı Dadaşbaladır. O, məşhur adamdır, necə deyərlər, qılıncının dalı da kəsir, qabağı da. Heç kim onunla mübahisəyə girişə bilmir. Hamı bu ətsatan ilə ehtiyatlı dolanır. Nə üçün? Axı, o kimə arxalanır? Bu suallar Hekayəti Dadaşbalanın evinə gətirib çıxarır. Təkcə bumu? Xeyr! Onun adı prokurorun atasının adı ilə yanaşı çəkilir. Elə buradaca qeyd etmək istəyirik ki, qəssabın evinin həndəvərindən başlamış, həyətinin içi, evi, adamları, onların geyim-keçimi, otaqların quruluşu, bərbəzəyi yazıçı tərəfindən təfərrüatı ilə təsvir edilmişdir. Bu isə yazıçıya obrazın əşya azarını, mənəvi miskinliyini, cılız daxili aləmini açmaqda yaxşı imkan yaratmışdır."

Əgər söhbət keçmişdən getsəydi, tarixi missiyasını yerinə yetirmiş bir cəmiyyətdən getsəydi, ictimai quruluş tənqid obyekti olsaydı, biz məsələyə başqa cür yanaşardıq. Doğrudur, bu məsələlər də var. Hadisələrin hansı zamanda, hansı mühitdə getdiyini də unutmuruq. Amma, hər halda bu gün kriminal, qanundan kənar hadisələrin fonunda insan həyatı üçün sözün həqiqi mənasında təhlükə mənbəyi olan əməlləri aşkarlayan xronikaları izləyirik. Ölkəyə nə qədər zərərli dərmanlar gətirilir, insan həyatı üçün tam zərərli olan ərzaq məhsulları, hələ ağ ölüm ləvazimatı narkotika azmış kimi, ayrı-ayrı kustar sexlərdə antisanitar şəraitdə kolbasalar hazırlanır, müxtəlif cür yavanlıqlar tədarük olunur. Əlbəttə, müəyyən qədər işlər görülür, günahkarlar cəzaya cəlb edilir. Ancaq, demək olar ki, bütün bunlar təsirsiz qalır, çünki neqativ hallar səngimək bilmir. Burada yetmişinci illərdə yazıçının qaldırdığı "ət mafiyası"na münasibət məsələsi diqqəti ona görə çəkir ki, həmin mafiya ən eybəcər və daha təhlükəli bir tərzdə bu gündə fəaliyyətini davam etdirir. Ayrı-ayrı rayonlardan, Bakı kəndlərindən mənşəyi məlum olmayan ət və ət məhsulları paytaxtın şadlıq saraylarına daşınmaqdadır. İnsanların məlumatsızlığı, nəzarət etməli olanların müəyyən təmənna ucbatından vəziyyətə göz yummaları problemi dərinləşdirir və daha geniş şəbəkə yaradılmasına şərait yaradır. Əsərdəki Dadaşbala tipinin varisləri indi daha qoçaqdır. Onlar dondan-dona girə bilirlər. Hər cür şəraitdən yararlanmağa çalışırlar. Belə vəziyyətdə biz yetmişinci illərin əqidəli, ləyaqətli prokuror obrazı Hekayətin fədakar varislərini görə bilmirik.

Ayrı-ayrı yüksək çinli məmurların az qala dövlətin əsaslarını sarsıtmağa yönəlik əməlləri bizi düşündürməlidir. Tənqidçi məqalə boyu ayrı-ayrı obrazları xarakterizə edərkən yenə vəzifə sahibinin humanizmini cəmiyyətin saflaşmasında əsas mənbə kimi görür. Hər halda cəmiyyət duman içərisində qala bilməz. Əsərdəki dumanın dağılma prosesini, yəni hadisələrin açılmasını tənqidçi hadisələrin yozumunda üstün və təsirli hadisə kimi qeydə alır: "Duman get-gedə seyrəlir. Prokurorun surəti gözümüz önündə dolğunlaşır, zənginləşir. Qovluq qarşıya gəlir. Məmmədyar Zəminzadənin "əməllərini" bir növ "sənədləşdirən" bu qovluqla əlaqədar səhifələr əsərin ən gərgin, ən dramatik səhnələrindəndir. Həmin qovluq prokuror qızın atası haqqında şübhə və gümanlarında tam yəqinlik hasil etməsində tutarlı bir vasitədir."

Həmişə mənə elə gəlib ki, yazıçılarda, söz, sənət üzərində işləyən tənqidçilərdə, cəmiyyətin həyatına həssas münasibət intuissiya ilə olsa da, doğru nəticələrə gəlir. "Prokuror" romanı tənqidçinin qeyd etdiyi kimi bir çox sirlərin - Azərbaycanın mənəvi mühiti ilə bağlı saxtakarlıqların, mafiyoz qüvvələrin əməllərinə işarə vuran əsərdir. Bəzən cəmiyyətin üstünü bürümkədə olan dumanı dağıtmaq meyilləri olsa da bu dumanlıqlar sonrakı dövrlərdə daha da sıxlaşmaqla, siyasi və mənəvi böhrana gətirib çıxardı. Bu on il sonra baş verdi. Hər halda yazıçı müəyyən mənada bu hadisələrin kökünə və mahiyyətinə işarələr etmişdi. Tənqidçi də cəmiyyətin sirlərini özündə ehtiva edən qovluq məsələsini qabartmaqla, siyasi mühitin iç üzünün gizləndiyi qovluğu təsadüfən "açmır". Şəfəq Məmmədovanın bir ritorik sualı da diqqətimi çəkdi: "Nəyin bahasına". Hər hansı bir fədakarlıq, əqidə, inam uğrunda döyüş, hesaba gəlməyən əsəb, sarsıntı, iztirab bahasına özünü təsdiq edir. Tənqidçinin insana münasibətdə yazıçı mövqeyini təqdir etməsi göstərir ki, o, bütün hallarda humanizmi ən üstün insani keyfiyyət kimi görür və cəmiyyətin mənəvi nizamında insanpərvərliyin xüsusi əhəmiyyət kəsb etdiyini təsdiq edir. Biz Şəfəq Məmmədovanı gənc tənqidçi kimi, cəsarətlə müəyyən ziddiyyətli məqamlara aydınlıq gətirə biləcək mülahizələrlə çıxış etdiyini deməşik. Bu məqaləsində də cəmiyyətin həyatı ilə bağlı bir çox problemləri qorxmadan, çəkinmədən qabartmaqla, ziyalı mövqeyi tutur.

Tənqidçinin əqidəli mövqeyi əsərə münasibətdə də özünü göstərir. O, çəkinmədən əsərdə yazıçının hansı səbəbdənsə üzdən getdiyi məsələlərə diqqəti yönəltməsində, əsəri yaxşı başa düşdüyünə və kəm-kəsirləri də görə bildiyinə bizi inandırır: "Buradaca, həyat həqiqətinə əsasən sadiq olan yazıçıya bəzi iradlarımızı da bildirmək istərdik. Əlbəttə, biz inanırıq ki, Afər kimi təcrübəsiz, sadəlövh qızlar həyatda vardır. Lakin bu qızın dili-ağzı bağlı, qara "Volqa"ya əyləşib gecə dəniz kənarına gəlməsi, namusu ləkələnəndən sonra da siması bizi inandırmır. Bu da bizi inandırmır ki, Bətura ərinin Afərlə bağlı əxlaqsızlığına soyuqqanlı olsun, onun hərəkətlərinə təbii baxsın. Ərinin başqa cinayətlərinə göz yumsa da, o, hər halda qadındır və qəlbində qısqanclıq hissləri baş qaldırmalı idi."

Bu qeydlər həm də onu göstərir ki, Şəfəq Məmmədova özü də həyatı qavramaqda idi. Və əslində onun daxili aləmində nəsr yaradıcılığı, nəsrin imkanları, həyat lövhələrini realliğa uyğun təsvir etmək... psixoloji inkişaf prosesi gedir. O, əsərdəki kəm-kəsirləri daxili aləmində baş qaldıran yazıçılıq missiyasının təsiri ilə bildirirdi. Təsadüfü deyildir ki, o, sıradan olan oxucunun diqqətini çəkə bilməyəcək psixoloji məqamların da üzərinə düşüncə işığını yönəldir: "Əsərdə açılmamış bəzi mətləblər də vardır. Məsələn, Zəminzadə kimi hiyləgər və riyakar bir adamı keçmişi ləkəli olan Bətura ilə evlənməyə nə sövq etmişdir? Mirzəməmmədin dediynə görə, Zəminzadənin özünün də keçmişi ləkəlidir. Lakin əsərin sonuna qədər necə bir ləkə olduğu oxucuya məlum olmur. Bu və ya buna bənzər hadisə və detallarda müəllifin təfsilata varmaması, əsərin sujet aydınlığına müəyyən kölgələr salır."

Tənqidçinin açıqgözlülüyü, əsəri bütöv bir tablo kimi görməsi, xüsusilə, geniş həyat bilgiləri, bütövlükdə roman ənənələrinə bələdlik onun əsər haqqında rəyinə xüsusi bir əsaslılıq gətirir: "Prokuror" romanında bu gün cəmiyyətimizdə rast gəldiyimiz rüşvətxor, riyakar, öz mənafeyini düşünərək ümumi inkişafımıza mane olanların narahat yazıçı-vətəndaş mövqeyindən tənqidi ilə yanaşı, prinsipial, vicdanlı, möhkəm irədə adamlarımızın fəaliyyəti də öz bədii əksini tapmışdır. Əsərin müasirliyini təmin edən mühüm məziyyətlərdən biri də elə budur ki, o, adamların işi və mübarizəsi timsalında ictimai ideallarımızın təntənəsini təsdiq edir".

O dövrdə təkcə yazıçı narahat deyildi, Ş.Məmmədovanın özü də narahat idi. Həyat haqqında çevik düşüncəli bir gənc kimi...

01.10.2019